# Avropa İttifaqının Azərbaycan Respublikası üçün
# Qonşuluq və Tərəfdaşlıq Aləti



Layihə Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir

Layihə DMİ Associates və EKVİTA
Konsorsiumu tərəfindən həyata keçirilir

## GİRİŞ

Kənd təsərrüfatında ticarət bir çox dövlətlərdə ümumi iqtisadi fəaliyyətin vacib hissəsi olaraq çıxış edir, daxili kənd təsərrüfatı istehsalında və əhalinin məşğulluğunda əsas rol oynamağa davam edir. Bu sahə, həmçinin, ticarət sistemi və qlobal qida təhlükəsizliyində də fundamental vacib rol oynayır, məsələn, iqlim və ya digər şərtlərin dəyişməsi nəticəsində yaranan qida çatışmamazlığını misal kimi gətirmək olar.

Ümumdünya Ticarət Təşkilatının (ÜTT) Kənd Təsərrüfatı haqqında Sazişindən söhbət açarkən, ilk növbədə qeyd olunmalıdır ki, bu sahə ÜTT-nin 1947-ci il Tariflər və Ticarət üzrə Baş Sazişi (GATT) ilə də əhatə olunmuşdur. Məsələn, GATT 1947-də dövlətlərə ilkin kənd təsərrüfatı mallarına ixrac subsidiyalarının tətbiqinə icazə verilmişdir, lakin sənaye mallarına belə subsidiyaların tətbiqi qadağan olunmuşdur.

Lakin, Uruqvay Raundunda aparılan danışıqlarda kənd təsərrüfatının bir ayrıca danışıqlar mövzusu kimi əhəmiyyəti aktiv şəkildə artmağa başladı. Və, nəticədə, bu sahəni tənzimləyən müstəqil qaydaların işlənib hazırlanması zərurəti aydın şəkildə meydana çıxdı. Uruqvay Raundu danışıqlarında kənd təsərrüfatı müstəqil şəkildə, həmçinin, əlaqəli mövzularla birlikdə müzakirə olundu. Konkret olaraq, Kənd Təsərrüfatı haqqında Saziş Sanitar və Fitosanitar Tədbirlərin Tətbiqi ilə bağlı Saziş ilə parallel olaraq müzakirə olunurdu.

## Kənd Təsərrüfatı haqqında Saziş və onun tələbləri

ÜTT-nin Kənd Təsərrüfatı haqqında Sazişi (AoA) 1 yanvar 1995-ci il tarixdə qüvvəyə mindi. Sazişin Preambulasında qəbul edilir ki, Uruqvay Raundunda başlanılan islahatlar prosesinin uzunmüddətli məqsədi ədalətli və bazara istiqamətlənən kənd təsərrüfatı üzrə ticarət sisteminin yaradılmasından ibarətdir. AoA, həmçinin, qeyri-ticarət məsələləri, o cümlədən, qida təhlükəsizliyi, ətraf mühitin qorunması, inkişaf etməkdə olan dövlətlər üçün, belə dövlətlər üçün konkret ixrac marağı kəsb edən kənd təsərrüfatı məhsullarına çıxış imkanları daxil olmaqla, xüsusi güzəştli rejimin təqdim olunması kimi məsələləri də əhatə edir. Qeyd olunduğu kimi, AoA gömrük qiymətləndirilməsi, idxal lisenziyalaşdırılması, subsidiyalar və ticarətdə texniki maneələr kimi bir sıra məsələlər üzrə ÜTT-nin digər sazişləri ilə də əlaqəlidir. Lakin, bu sazişlərlə AoA arasında hər hansı mübahisə yarandığı halda, AoA-nun şərtləri üstünlük təşkil edir.

## Əhatə dairəsi - Kənd Təsərrüfatı üzrə ÜTT Sazişinin (AoA) üç sütunu

### 1. Bazara Çıxış

Bazara çıxış ÜTT üzvləri tərəfindən ticarətdə tarif (və ya qeyri-tarif) maneələrinin azaldılmasını nəzərdə tutur. AoA kənd təsərrüfatı mallarına tətbiq olunan tariflərin aşağıdakı qaydada azaldılmasını tələb edir (nəzərə alınmalıdır ki, aşağıda göstərilən keçid müddətləri ÜTT-nin yaranma tarixindən, yəni 1995-ci ildən etibarən hesablanır):

- İnkişaf etmiş ölkələr (developed countries) üçün altı il ərzində hər bir tarif xətti üzrə minimal 15% azaltma ilə orta hesabla 36% azaltma;
- İnkişaf etməkdə olan ölkələr (developing countries) tərəfindən on il ərzində hər bir tarif xətti üzrə minimal 10% azaltma ilə orta hesabla 24% azaltma.

Ən az inkişaf etmiş ölkələr (least developed countries) tarif azaldılmalarından azad olunmuşdurlar, lakin onlar "tarifləşdirmə" adlanan prosesi həyata keçirməli - qeyri-tarif maneələri tariflərlə əvəz etməli və ya gələcəkdə artırılması mümkün olmamaq şərtilə baundları (məcburi tarif səviyyələrini) müəyyən etməlidirlər.

## 2. Daxili Dəstək

Daxili dəstək aşağıdakı subsidiyalar formasında həyata keçirilir. Burada Zənbillər ifadəsindən istifadə edilir, hər bir Zənbilin məzmunu və hər Zənbilə aid tədbirlər mövcuddur. Bugün aşağıdakı Zənbilləri (dəstək növlərini) qeyd etmək lazımdır.

**Yaşıl Zənbil**:
Bu növ dəstək AoA-nın 2 nömrəli Əlavəsində müəyyənləşdirilmişdir. Yaşıl Zənbilə aid olmaq üçün, subsidiyalar ticarəti təhrif etməməli və ya minimal təhriflə nəticələnməlidirlər (1-ci bənd). Onlar qiymətlərin artırılması yolu ilə deyil, dövlət tərəfindən maliyyələşdirilməlidir və qiymət dəstəyini ehtiva etməməlidirlər. Bir qayda olaraq, onlar müəyyən məhsula hədəflənən proqram deyil, hazırkı istehsal səviyyəsinə və qiymətlərə bağlı olmayan fermerlərə birbaşa maddi dəstəyi əhatə edirlər. Həmçinin, onlara ətraf mühitin mühafizəsi və regional inkişaf proqramları daxildir. Buna görə də, Yaşıl Zənbildəki subsidiyalara heç bir məhdudiyyət qoyulmadan icazə verilir, bu şərtlə ki, onlar 2 nömrəli Əlavədə əks olunmuş xüsusi siyasi kriteriyaya uyğun olsunlar. Məsələn, Yaşıl Zənbil subsidiyalarına aşağıdakı dəstək növlərini missl gətirmək olar:

- *mövcud istehsal səviyyəsinə və qiymətlərə bağlı olmayan fermerlərə birbaşa maddi yardım;*
- ətraf mühitlə bağlı proqramlarla əlaqədar tədqiqatların aparılması;
- ətraf mühitlə bağlı proqramlarla əlaqədar fermerlərə verilən ödənişlər;
- *yoluxucu xəstəliklər əleyhinə tədbirlər, karantin mühafizəsi;*
- *təlim və məsləhət xidmətləri;*
- *infrastruktur xidmətləri: suvarma sistemlərinin, yolların, elektrik xətlərinin çəkilməsi və s.;*
- *kənd təsərrüfatının yenidənqurulması* üçün fermerlərə *dəstək;*
- ərzaq təhlükəsizliyi proqramları ilə bağlı tədbirlər;
- *təbii fəlakətlərin aradan qaldırılması məqsədilə fermerlərə verilən ödənişlər;*
- *regionların inkişafına yardım məqsədilə fermerlərə verilən ödənişlər və s.*

**Sarı Zənbil**:
Demək olar ki, istehsalı və ticarəti təhrif edən bütün daxili dəstək tədbirləri (bəzi istisnalarla) Sarı Zənbilə aiddir. AoA-nın 6-cı maddəsinə əsasən, Mavi və Yaşıl zənbillərə aid edilməyən bütün daxili dəstək tədbirləri Sarı Zənbilə aiddirlər. Buraya qiymətlərə dəstək tədbirləri və ya istehsalın həcmi ilə birbaşa əlaqəli subsidiyalar daxildir. Bu cür yardımlara müəyyən məhdudiyyətlər nəzərdə tutulmuşdur: *de minimis* prinsipinə uyğun olaraq, minimal dəstəyə icazə verilir (adətən, bu dəstək inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı istehsal həcminin 5%-ni, inkişaf etməkdə olan ölkələrdə isə 10%-ni təşkil edir). Azaldılma öhdəlikləri müəyyən olunmuş məhsullar üçün olan dəstəkləri, eləcə də müəyyən olunmuş məhsullar üçün nəzərdə tutulmayan dəstəkləri özündə birləşdirən Yekun Ümumi Dəstək Göstəricisi ("Total AMS") baxımından bir qrafikdə göstərilib. Ümumiyyətlə, Sarı Zənbil subsidiyalarına aşağıdakı dəstək növlərini misal gətirmək olar:


DMI Global vision for local solutions
EKVITA

- *spesifik məhsulun istehsalına yönəldilən subsidiyalar;*
- *yanacaq, suvarma istifadəsində verilən güzəştlər;*
- *vergilərin ləğv edilməsi naticəsində yaranan imtiyazlar;*
- *gübrə, toxumların alınmasına göstərilən güzəştlər;*
- *istehsalçılardan zəmanətli qiymətlərlə məhsulların satın alınması (Avropa İttifaqı təcrübəsi, Aİ-da taxıl və süd məhsullarına aiddir);*
- *aqrolizinq proqramları və s.*

**Mavi Zənbil**:
Bu Zənbil - "şərtli Sarı Zənbildir". Bu şərtlər təhrif olunmanın azaldılmasını nəzərdə tutur. Adi halda Sarı Zənbilə daxil edilməli olan hər hansı dəstək, həm də fermerlərdən istehsalın məhdudlaşdırılmasını tələb edirsə, həmin dəstək Mavi Zənbilə daxil edilir (daha ətraflı məlumat AoA-nın 6-cı maddəsinin 5-ci bəndində nəzərdə tutulmuşdur). Hal-hazırda Mavi Zənbilə aid olan subsidiyalar üzrə heç bir xərc məhdudiyyəti nəzərdə tutulmayıb.

Əlavə olaraq, **İnkişaf Proqramı**:
AoA-nın 6.2-ci maddəsi inkişaf etməkdə olan ölkələrə daxili dəstəyin həyata keçirilməsi üçün əlavə imkanlar yaradır. İnkişaf kateqoriyasına aid oluna bilən dəstək növləri birbaşa və ya dolayı olmasından asılı olmayaraq, kənd təsərrüfatı və kənd yerlərinin inkişafını təşviq etmək üçün yaradılmış və inkişaf etməkdə olan ölkələrin inkişaf proqramlarının ayrılmaz hissəsi olan dəstək tədbirləridir. Bu dəstək, adətən, inkişaf etməkdə olan üzv ölkələrdə kənd təsərrüfatı üçün mövcud investisiya subsidiyalarını, inkişaf etməkdə olan üzv ölkələrdə yoxsul və ya az resurslu istehsalçılar üçün mövcud kənd təsərrüfatı subsidiyalarını və inkişaf etməkdə olan üzv ölkələrdəki istehsalçılara qanunsuz narkotik məhsulları yetişdirilməsindən diversifikasiyanı təşviq etmək üçün daxili dəstəyi əhatə edir.

## 3. İxrac Rəqabəti

AoA üzv dövlətlərin öhdəliklər cədvəlində əks olunmamış kənd təsərrüfatı məhsullarına ixrac subsidiyalarını qadağan edirdi. Hətta, öhdəliklər cədvəlində əks olunduğu təqdirdə, Saziş üzv ölkələrdən ixrac subsidiyaları üçün xərclənən məbləğin, eləcə də subsidiyanın yönəldiyi ixrac həcminin azaldılmasını tələb edirdi.
Xüsusilə qeyd etmək zəruridir ki, Kənd təsrrüfatında ixrac susbsidiyaları Uruqvay Raundu danışıqlarından əvvəl və ÜTT yaranandan sonra da ayrıca danışıq mövzusu olaraq çıxış edir. 15-18 dekabr 2015-ci il tarixində Nayrobidə keçirilmiş 10-cu Nazirlər Konfransında qəbul edilmiş Qərara əsasən Kənd təsərrüfatında ixrac susbsidiyaların tətbiqi (sənayedə belə subsidiyaların tətbiqi əvvəlcədən qadağandır) qadağan olunmuşdur, aşağıdakı şərtlərlə:

- İnkişaf etmiş üzv ölkələr öhdəlik cədvəllərində hələ də qalmış ixrac subsidiyalarını dərhal aradan qaldırmalıdırlar;
- İnkişaf etməkdə üzv ölkələr 2018-ci ilin sonuna qədər öz ixrac subsidiyalarını aradan qaldırmalıdırlar və 2023-cü ilin sonuna qədər Kənd təsərrüfatı üzrə Sazişin 9.4-cü maddəsinin müddəalarından faydalanmağı davam edə bilərlər (qərar qəbul olunduğu tarixə belə proqramları mövcud olduğu təqdirdə);
- Az inkişaf etmiş ölkələr və xalis ərzaq idxal edən inkişaf edən ölkələr 2030-cu ilin sonuna qədər Kənd təsərrüfatına dair Sazişin 9.4-cü maddəsinin müddəalarından faydalanmağı davam edə bilərlər.

## AoA çərçivəsində digər öhdəliklər

AoA-ya qoşulmuş ölkələrin ümumi öhdəliklərindən biri də, ÜTT-nin digər sazişlərində olduğu kimi, kənd təsərrüfatında daxili dəstək tədbirlərinin tənzimlənməsinin şəffaflığının təmin edilməsidir. Belə ki, üzv olarkən, ölkə tərəfindən bütün tətbiq olunan dəstək növləri (Yaşıl, Sarı, Mavi zənbillər, İnkişaf Proqramları, İxrac susbsidiyaları və s., *de minimis* və AMS, həmçinin, dəstəyin azaldılması üzrə öhdəliklər göstərilməklə) xüsusi cədvəllər formasında Təşkilata təqdim edilir. Üzvlükdən sonra azaldılması nəzərdə tutulmayan dəstək növlərinə, yəni, Yaşıl, Mavi zənbillər, *de minimis* səviyyəsi, İnkişaf Proqramları çərçivəsində təqdim edilən dəstəyə dair, bunlar çərçivəsində hər hansı dəyişikliklə bağlı ÜTT-nin Kənd Təsərrüfatı Komitəsinə illik əsasla məruzə edilməlidir. Üzv olarkən AMS-in azaldılması üzrə öhdəlik götürüldüyü və hesablamalar aparıldığı halda proses ilə bağlı, həmçinin, Komitəyə məlumat verilməlidir.

İllik əsaslarla təqdim olunacaq məruzədən Az inkişaf etmiş Üzv ölkələr azaddırlar. Onlar daha çox interval ilə məlumatı Komitəyə təqdim edə bilərlər. Həmçinin, İnkişaf etməkdə olan Üzv ölkələr də Yaşıl, Mavi zənbillərdə və ya İnkişaf Proqramlarında nəzərdə tutulan dəstək formalardan başqa hər-hansı digər tədbirlər haqqında məruzənin daha uzun intervalla edilməsinə dair Komitəyə müraciət edə bilərlər.
Qeyd olunan məruzələr Komitə tərəfindən yoxlanılır və hər hansı uyğunsuluq aşkar edildiyi halda, təqdim edən Üzvə, həmçinin Üzvlərə məlumat verilir.



DMI Global vision for local solutions
EKVITA

Bu nəşr Avropa İttifaqının maliyyə dəstəyi ilə ərsəyə gətirilmişdir. Onun məzmunu üçün Aİ tərəfindən maliyyələşən “ÜTT-yə üzvlük danışıqlarında İqtisadiyyat Nazirliyinin ÜTT Şöbəsinə dəstək və potensialın gücləndirilməsi” layihəsi təklikdə məsuliyyət daşıyır və məzmun Avropa İttifaqının yanaşmasını əks etdirmir.

Avropa İttifaqına üzv olan dövlətlər öz biliklərini, resurs və müqəddəratlarını bir-birinə bağlamağa qərar vermişdirlər. Onlar sabitlik, demokratiya və davamlı inkişaf yolunu birgə qurmuş, eyni zamanda öz mədəni müxtəlifliyini, tolerantlıq və azadlığını qoruyub saxlamışlar. Avropa İttifaqı nailiyyet və dəyərlərini öz sərhədlərindən kənarda olan ölkələr və xalqlar ilə bölüşməkdə qərarlıdır.